Ədəbiyyat qəzeti



9 yanvar / 2021

Nilufər ŞIXLI

# *Kimdir müqəddəs əsgər?..*

Kimdir müqəddəs əsgər?
Hər gün gördüyün oğlan -
Saymadığın,
Yanından salamsız da keçdiyin,
Laqeyd baxışınla
Cavanca ürəyində min bir yara açdığın?..

Bəlkə rəfiqələrlə
Baxıb sadəliyinə, qəhqəhəylə güldüyün,
Bəlkə də gizli-gizli
Həsrətindən qovrulub,
sevdasından öldüyün?..

Kimdir müqəddər əsgər?
Səni incidən oğlun -
Oturub çayxanada dostlarıyla cəhl edən,
Yayınıb dərslərindən
Futbola, parka gedən?..
Hirslənib danladığın
Niyə sındırdı deyə, qonşunun şüşəsini,
Peşman olmasa belə,
Böyük-kiçik tanıyıb, çıxarmayan səsini.

Səni buyuran qardaş -
Palını-paltarını ütüləyib yığdığın,
Ardınca boylananda boyuna yalvardığın?..
Mindirib cin atına,
Sonra tapıb dilini sirrini öyrəndiyin,
Hamıdan gizlədiyin.
Qızların arasından gəlin seçib anana
Toyunu gözlədiyin?..

Kimdir müqəddəs əsgər?
Vətənin bir parçası!
Zəfər ilə Tur edən
Hər təpəni, hər dağı!
Qanı ilə yurd edən
Bizlərə bu torpağı!

## *Əsgər məktubu*

Silib üzünün tərini,
gülümsəyib öz-özünə, tüfəngini yandan asır.
Bir gənc əsgər
anasına məktub yazır.
Salam deyib xəbər alır əhvalını.
Bir az doğru, bir az yalan -
yaxşı yazır öz halını.
Soyuqsa da, çox gözəldir yerim, deyir.
Ərköyünəm,
qoy bir mən də çətinliyi görüm, deyir.
Ürəyində:
"Vətənimə öz borcumu verim" deyir.
Sonra yazır:
Kaş görəsən, nə cənnətdir bu tərəflər!..
Otuz ildir at oynadır yurdumuzda naxələflər.
Otuz ildir məzarları yol gözləyir igidlərin.
İndi ölmək vaxtı çatıb bu itlərin!
Bir də, ana,
elə bil ki, şəhidlərin ruhu gəzir bu yerlərdə;
Gözümüzə görünürlər səngərlərdə,
Bəzən, sanki önümüzə qalxan olub
qoruyurlar güllələrdən...
Bilirəm ki, inanarsan bunlara sən.
Əziz anam, salam söylə qohumlara, tanışlara.
Vaxt olduqca yazacağam ara-sıra...

Əsgər qalxır buz torpaqdan,
Yenə düzəldib qəddini,
Gedir Vətən qorumağa,
Götürüb öz tüfəngini.